**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**

**21 fevral 2025-ci il tarixli**

**QƏRARI**

1. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29.09.2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Fəlsəfə doktoru imtahanlarının keçirilmə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.4-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin və ikinci – üçüncü cümlələr müvafiq olaraq üçüncü – dördüncü cümlələr hesab edilsin:

"Sertifikatlar orijinallığının yoxlanılması və verifikasiyasının aparılması məqsədilə DİM-ə təqdim edilir.";

1.2. 3.4-cü bənddə üçüncü cümlə aşağıdakı redaksiyada verilsin:

"Həmin şəxslər sertifikatlarının surətini DİM tərəfindən sertifikatın orijinallığı və verifikasiyası haqqında verilən arayışla bərabər attestasiya sənədlərinə əlavə etməlidirlər.";

1.3. Əlavə 8.2-də və Əlavə 8.3-də "Direktorlar Şurasının sədri" sözləri "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29.10.2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat"a Əlavə 1.5-in ("Elmi dərəcə iddiaçısı tərəfindən dissertasiya şurasına təqdim edilən sənədlərin Siyahısı") 9-cu bəndi aşağıdakı redaksiyada verilsin:

"9. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq şəhadətnamələr (ixtisas fənni üzrə şəhadətnamələr imtahan protokolunun surəti ilə birlikdə təqdim edilir; xarici dil üzrə beynəlxalq dil sertifikatının surəti DİM tərəfindən sertifikatın orijinallığının yoxlanılması və verifikasiyasının aparılması haqqında verilən arayışla bərabər təqdim edilir) – 2 nüsxə;".

3. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 29.10.2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş

“Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat”a Əlavə 1.14-ün (“Elmi dərəcə verilməsi üçün dissertasiya şurası tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilən sənədlərin Siyahısı”) 8-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“8. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq şəhadətnamələr (ixtisas fənni üzrə şəhadətnamələr imtahan protokolunun surəti ilə birlikdə təqdim edilir; xarici dil üzrə beynəlxalq dil sertifikatının surəti DİM tərəfindən sertifikatın orijinallığının yoxlanılması və verifikasiyasının aparılması haqqında verilən arayışla bərabər təqdim edilir);”.

**Qeyd:** Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatının orijinallığı və verifikasiyası haqqında DİM tərəfindən verilən arayışın təqdim edilməsi barədə tələb dissertasiya işlərinin ilkin müzakirəsi 01.10.2025-ci il tarixindən etibarən keçiriləcək iddiaçılara şamil edilir.